**Leyla Məhərrəmova**
*Azərbaycan Dillər Universiteti*
***https://orcid.org/0000-0001-6720-177X***

**10.30546/2518-752X.1.601.085**

# AŞAĞI KURSLARDA İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ İNNOVATİV TEXNOLOGİYALARIN ROLU

***Açar sözlər***. *Innovativ texnologiyalar, süni intellekt, CLT, ağıllı məktəb, multimedia vasitələri*

***Keywords:*** *innovative technologies, artifical intelligence, CLT, smart school, multimedia tools*

***Ключевые слова:*** *инновационные технологии, искусственный интеллект, CLT, умная школа, мультимедийные инструменты*

**Giriş.** Müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarının inkişafı təhsil sahəsində də vacib dəyişikliklərə səbəb olmuşdur. Xüsusilə də, xarici dil dərslərində innovativ texnologiyalardan istifadə tədris prosesini daha səmərəli və motivasiyaedici vəziyyətə gətrib çıxarmışdır. Onlayn dərslər, sinif otağında innovativ texnologiyalardan istifadə, Aİ əsaslı proqramların tədris prosesinə inteqrasiyası və ağıllı məktəb modelinə keçid zərurətə çevrilmişdir.

Rəqəmsallaşma dövründə informasiya-kommunikasiya texnologiyalarının inkişafı təhsil sferasında da vacib dəyişikliklərə səbəb olmuşdur. Xüsusilə də, dil dərslərində innovativ texnologiyalardan istifadə tədris prosesini daha efektiv, səmərəli və motivasiyaedici vəziyyətə gətrib çıxarmışdır. Innovativ tətbiqlər, dərsdə mobil telefondan səmərəli istifadənin mümkünlüyü, rəqəmsal resurslar və interaktiv tədris proqramları tələbələrin dil bacarıqlarının inkişafına səbəb olmuşdur.

Bildiyimiz kimi ingilis dili müxtəlif məqsədlərlə öyrənilir. Məsələn, xaricdə təhsil üçün, akademik məqsədlər üçün, yeni bir dil öyrənmək üçün və ya ingilis dilli hər hansı bir ölkəyə inteqrasiya üçün və s. İnnovativ texnologiyaların tədrisə inteqrasiyası bütün bu məqsədlərə çatmağa gedən yolu daha da asanlaşdırırr[1, s.121].

Ənənəvi tədris metodu texnologiyanın inkişafı ilə daha efektiv və interaktiv yanaşmalarla əvəz edilmişdir. Bu dəyişikliklər xüsusilə xarici dillərin tədrisində təsirini daha çox göstərir. Texnoloji vasitələr tələbələrə xarici dostlar əldə etmək, xaricdə təhsil almaq, işləmək imkanlarını əldə etməyə kömək edir.

Bunlarla yanaşı, texnoloji vasitələr tələbələrin hər birinin öz dil səviyyəsinə uyğun materiallar və tapşırıqlar əldə edə bilirlər.

Texnoloji vasitələrin dərslərə inteqrasiyası pandemiya dövründə daha da genişlənmiş, hətta zərurətə çevrilmişdir. Artıq, texnoloji vasitələrin dərsdə istifadə olunmasını qəbul etməyən müəllimlər də bu vasitələrdən geniş istifadə etməyə başladılar. Bəzi müəllimlər kompüterdən, Ms Teams, Zoom kimi proqramlardan

istifadə etməyi öyrənmək üçün təlimlərə qoşuldular. Bütün bunlar dərslərin texnoloji vasitələrlə onlayn şəkildə istifadəsinin geniş yayılmasına səbəb oldu.

Artıq texnoloji vasitələrdən əyani dərslərin daha məhsuldar və maraqlı keçməsi üçün istifadə olunur. Artıq, dil dərslərinin texnologiyasız tədrisini düşünmək çətindir. Çünki, bu vasitələr müəllimlərə geniş metodiki imkanlar verir.

Texnoloji vasitələrin tətbiq olunma forma və bacarıqların inkişafına görə bir-neçə növü var.

- **Videokonfranslar və virtual siniflər**. Bu tip proqramlara pandemiya dövründə də ən çox istifadə etdiyimiz Zoom, Microsoft Teams, Skype və s. texnoloji vasitələr aiddir[2, s.195]. Sinxron dətrslərin keçirilməsi üçün bu proqramlar əvəzsizdir. Sinxron dərslər dedikdə müəllimlə tələbələrin eyni anda onlayn olub canlı şəkildə tapşırıqlar edib, qiymətləndirmə aparılması nəzərdə tutulur.
- **Tədrisin idarəetmə sistemləri(LMS).** Bu platformalar dərs materiallarının təşkili, tapşırıqlar və onların yoxlanılıb qiymətləndirilməsi üçün əlverişli mühit yaradır. Bu sistemlərə Moodle, Google Classroom, Edmodo və s. aiddir. Bu sistemlər tələbə və müəllim arasında davamlı ünsiyyəti dəstəkləyir.
- **Mobil tətbiqlər.** Bu tətbiqlər tələbələrə gündəlik məşqlərlə istənilən yerdə dil öyrənməyə kömək edir. Bu tətbiqlərə Duolingo, Quizlet, Busuu və s. misal göstərə bilərik.
- **Multimedia vasitələri** dedikdə audio, video, vizual materiallar nəzərdə tutulur ki, bu materiallar eşitmə, görmə, eləcə də, kinestetik tipli tələbələr üçün uyğundur. Bu vasitələrə daxil olan filmlər, tətbiqlər, oyunlar və s. tələbələrin dərsə olan marsaq və motivasiyasını artırır. Filmlər və mahnıların köməyilə tələbələr ingilis dilinin müxtəlif danışıq nümünələrini eşidir, onların mədəniyyəti ilə tanış olur və nitqində istifadə edə bilir. Beləliklə də, multimedia vasitələri dinləmə və tələffüz bacarıqlarını təkmilləşdirir. Hətta, bu tətbiqlərin bəziləri dərhal düzəliş və ya cavab verir. Ted talks, BBC learning kimi platformaları bu vasitələrə aid edə bilərik.
- **Süni intellekt.** Son zamanlar süni intellekt əsaslı alətlər tədrisdə geniş istifadə edilir. Xüsusilə də, öz-özünə öyrənmə(self-study) üçün bu vasitələrdən istifadə əvəzsiz rol oynayır. Süni intellekt(AI) alətlərinə *ChatGPT, Grammarly, SpeakPal, Socratic by Google, Microsoft Copilot(Power Point/Ms Word), Quillbot* və s. aiddir. Bu alətlərin hər birinin özünəməxsus yardımedici xüsusiyyətləri vardır. Məsələn,

**ChatGPT** tətbiqi maraqlandığımız istənilən mövzu haqqında məlumat verir, yazıları yoxlayır, mövzunun izahın, müqayisəsin verir, mətnləri tərcümə edir, istənilən mövzu haqqında dərs planı qura bilir, esse yazır və s. kimi bacarıqlara malikdir.

**Grammarly.** Bu proqrama yazılı mətn yüklənir və proqram mətndəki qrammatik, leksik səhvləri Aİ ilə düzəldir.

**Speak Pal danışıq və tələffüz üçün nəzərdə tutulub.** Tələffüzdə edilən səhvlərin doğru variantını irəli sürür.

**Socratic by google.** Bu vasitə ilə tələbələr şəkil yükləyərək, tapşırığın cavabını ala bilir.

**Microsoft Copilot(Power Point/Ms Word).** Aİ ilə verilən mövzuda prezentasiyalar, testlər, dərs planı və s. hazırlayır.

**Quillbot**. Verilən mətni yenidən daha sadə və öyrədici formada yazır.

Bütün bu texnoloji vasitələrin tədrisdə üstünlükləri ilə yanaşı mənfi təsirləri də mövcuddur.

İlk öncə, texnoloji vasitələrin dil dərslərində olan üstünlüklərini araşdıraq.

Bu vasitələr, interaktiv alətlər, dərsin oyun əsasında qurulması və multimedia materialları tələbələrdə dərsə olan marağı artırır.

Əgər tələbələrin ağıllı telefonu və interneti varsa, o zaman, istənilən məlumat əldə etmək, tapşırıq etmək, kitab oxumaq, ingilis dilində film izləmək, xarici dostlarla kommunikasiya yaratmaq və s. hər zaman əlçatandır[3].

Bu vasitələrlə öyrəncilər öz dil və təhsil səviyyəsinə uyğun fərdiləşdirilmiş öyrənmə imkanı əldə edir.

Bütün bunlarla yanaşı, dil dərsləri üçün ən önəmli anlayış olan dil bacarıqlarının hər biri birlikdə inkişaf etdirilə bilər.

Bütün bu üstünlüklərlə yanaşı müəyyən *məhdudiyyətlərlə* də qarşılaşa bilərik.

Sinif otaqlarında texnoloji vasitələrin olmamağı və ya xarab olması, internetin zəifliyi və s. bu kimi problemlər dərsin plana uyğun irəliləməsində məhdudiyyətlər yarada bilər.

Bəzən sinif otaqları texnoloji vasitələrlə tam təchiz olunsa da, bəzi müəllimlərin bu vasitələrdən düzgün istifadə edə bilməməsi nəticəni zəiflədə bilər. Buna görə də, müəllimlər bu vasitələrin dərsdə istifadəsini öyrənmək üçün təlimlərdən keçməlidirlər.

Hər dərsi 90 dəqiqə ərzində texnologiyadan istifadə edilərsə, tələbələrdə klassik öyrənmə üsullarına maraq azalaraq, texnoloji vasitələrə bağlanır.

Video konfranslarda, Zoom, Microsoft Teams kimi virtual dərslərdə canlı və emosional ünsiyyət çətinləşir. Ünsiyyətlə yanaşı bu dərs formasında müəllimin tələbələrə nəzarəti də azalır. Bəzi tələbələr kameranı söndürüb başqa işlərlə məşğul olur. Bu problemlə pandemiya dövründə bir-çox müəllimlər qarşılaşmışdır. Buna görə də, bu vasitələrlə patok dərslərində hər bir tələbəyə diqqət göstərmək çətin olur. Lakin, bu problemi bir-neçə yolla həll edə bilərik.

İlk öncə, onlayn dərslərdə iştirakın həm müəllim, həm də dekanlıq tərəfindən yoxlanılması təşkil edilməlidir.

Dərs müddətində daimi olaraq hər biri tələbəyə əlavə suallar, feedback vermək müəllimin nəzarətini gücləndirir.

Dərsdə fəal təlim üsullarından istifadə də müəllimin bu problemini həll edə bilər.

Bütün bu yollarla yanaşı, müəllim öz qaydaları və onlara əməl edilmədikdə verilən cəza sistemi ilə tələbələri əvvəlcədən tanış etməlidir. Bu öyrəncilərdə məsuliyyət hissi yaradacaq.

İnnovativ texnologiyalarla, süni intellekt və rəqəmsal alətlərlə yüksək səviyyədə təchiz olunmuş interaktiv təhsil müəssisələri *"Ağıllı məktəb(Smart school)" modelini* yaradır. Ağıllı məktəb, artıq, ənənəvi məktəbin transformasiyası deməkdir.

Ağıllı məktəbi ənənəvi məktəbdən fərqləndirən özünəməxsus xüsusiyyətləri vardır. Belə ki, bu model ağıllı lövhələrlə, kompüterlərlə təşkil olunmuş interaktiv sinif otaqlarından ibarətdir. Sinifdə istifadə olunan rəqəmsal resurslar, yəni, dərsliklər, prezentasiyalar, test tapşırıqları və onlayn dərslər elektron platformalarda istifadə edilir. Onlayn dərslərlə yanaşı onlayn jurnal və gündəliklərdən istifadə olunur. Artıq, valideynlər müəllimlə əlaqə saxlamadan innovativ texnologiyalar vasitəsilə öyrəncilərin dərs nəticələrini izləyə bilirlər. Eləcə də, bu tip platforma-

larda valideynlər müəllimlər, onların setrifikasiya balı və uğurları haqqında da məlumat əldə edə bilirlər.

Aİ vasitəsilə öyrəncilərin datada olan zəif və güclü yönlərini analiz edərək onlara şəxsi tədris planı hazırlaya bilərlər.

Bütün bu xüsusiyyətlərlə yanaşı, kağız test və dərs materiallarının azalması ekoloji cəhətdən müəyyən üstünlüklərə malikdir.

Ağıllı məktəb təhsil və ekoloji xüsusiyyətlərlə yanaşı təhsil müəssisəsinin təhlükəsizlik sistemlərinin düzgün qurulmasına da kömək edir. Kameralar, ağıllı kartlar vasitəsilə təhsil müəssisələri daha təhlükəsiz məkana çevrilir.

Ağıllı məktəb modeli tələbələ və müəllimlərin rəqəmsal savadlılıq dərəcəsini artırır. Bu isə onlarda həm dərsi tədris etməyə, həm də öyrənməyə marağı artırır.

İnnovativ texnologiyalar və innovativ tədris metodları sayəsində dərs, artıq, sıxıcı və qeyri-məhsuldar olmur. Dərsin daha efektiv olmağının digər səbəbi isə bu dərs modeli vasitəsilə tədrisin adaptiv və fərdiləşdirilmiş formaya düşməsidir. Tədris daha fərdiləşdirilmiş olduğu üçün hər bir öyrənciyə fərdi yanaşılır, valideyn↔müəllim, müəllim↔tələbə münasibətləri daha da güclənir. Ağıllı gündəlik və jurnallar vasitəsilə valideynlər övladlarının nəticəsini öyrənə bilərlər.

Lakin, Ağıllı məktəb modelində bütün bu müsbətlərlə yanaşı mənfiliklərlə də qarşılaşa bilərik. Belə ki, bu model dərsi innovativ texnologiyalara əsaslanaraq qurur. Lakin, bəzi təhsil müəssisələri və ailələrdə bu vasitələri əldə etməyə imkan olmur. Buna görədə sinifdəki bu tip öyrəncilər digərlərindən geri qalır. Texnoloji vasitələr zəif olan müəssisələr isə ənənəvi metodda dərsi tədris etməyə məcbur olur. Bu isə rəqəmsallaşma dövründə dünya təhsilindən geri qalmaq deməkdir. Buna görə də, bu kimi problemlərin həlli prioritet məsələrdən biri hesab olunur.

Qarşılaşa biləcəyimiz digər çətinliklərdən biri isə müəllimlərin rəqəmsal bacarığının zəif olmasıdır. Çünki, orta və yaşı 50-dən çox müəllimlər ənənəvi, eləcə də, qrammatik-tərcümə metoduna öyrəşdikləri üçün onlara kompüter və digər texnoloji vasitələrdən istifadə etmək çətin olur. İstifadə edən yaşlı müəllimlərin dərsinin yarsı bu alətlərin quraşdırılmasına gedir. Buna görə də, müəllimlər rəqəmsallaşma dövrünə ayaq uydurmaq üçün təlimlərə qoşularaq bu bacarıqlarını formalaşdırmalıdırlar. Bu yolda ilk addımlar pandemiya dövründə atılmışdır. Çünki, dərslər bir müddət onlayn təşkil olunurdu. Artıq, bu dövrdə texnoloji alətləri öyrənmək məcburiyyətə çevrilmişdir. Yaşından və ya istəyindən asılı olmayaraq hər bir müəllim dərsi onlayn təşkil edirdi.

XXI əsr təhsil sisteminin əsas hissələrindən biri olaraq ağıllı məktəb modeli dərsdə innovativ yanaşmalar və innovativ texnologiyaları tətbiq edir. Azərbaycan məktəb və universitetlərində rəqəmsallaşdırma və resursların gücləndirilməsi, eləcə də, müəllimlərin təkmilləşdirilməsi prosesi sürətlə davam edir. Yaxın gələcəkdə bütün təhsil müəssisələrinin infrastrukturu və müəllim hazırlığı yüksək səviyyəyə qalxacaq.

Texnoloji vasitələr dilin dörd bacarığına da eyni səviyyədə inkişafına kömək edir.

İlk öncə texnoloji vasitələrin dinləmə bacarığının inkişafına hansı yollarla təsir etməsindən danışaq.

Dinləmə bacarığı öyrəncilərin eşidib anlama səviyyəsini yüksəldən kompetensiyadır. Bu kompetensiya tələbələr tərəfindən çətin bacarıq hesab olunur. Çün-

ki, ingilis dilinin bir-çox formaları var ki, bizim tələbələrin onların hər birinə aid filmləri, mahnıları, podkastları və s. eyni səviyyədə dinləyib anlamaqda çətinlik çəkirlər. Bu çətinliyi aradan qaldırmaq üçün texnoloji vasitələrin köməyi əvəzsiz hesab olunur. Dinləmə bacarığının inkişafına kömək edən texnoloji tətbiqlərə “Ted talks”, “BBC Learning English” və s. daxildir. Ted çıxışları tələbələrin həm dinləməsini, həm də görmə yaddaşını gücləndirir. Bunlarla yanaşı, süni intellekt əsaslı tətbiqlərdən biri “LingQ” tətbiqidir. Bu tətbiq tələbələrə podkastlar, məqalələr kimi dinləmə və oxu materialları verir. Tələbələr materialları oxuyub və ya dinləyərkən qarşılaşdıqları yeni sözləri proqramda saxlayıb sonra tərcümə edə və ya təkrarlaya bilərlər[4].

Produktiv bacarıqlardan biri olan danışıq bacarığı dil öyrənmə prosesinin ən çətin və aktiv etapı hesab olunur. Bunun səbəbi isə öyrəncilərə dili öyrənən gündən qrammatik tərcümə metodundan istifadə olunmasıdır. Bu metodda müəllim qrammatik qaydanı ana dilində izah edir. Daha sonra, öyrəncilərə tərcümə etmək üçün cümlələr verir. Keçilən fəsildə olan mətn müəllim tərəfindən tərcümə edilirdi. Bu metod tələbələrin oxu və yazı bacarıqlarını formalaşdırırdı. Digər bacarıqlar isə tələbələrdə zəif inkişaf edirdi.

Kommunikativ dil tədrisi(CLT) yanaşmasından istifadə dil dərslərində dörd bacarığın da eyni anda istifadəsinə və formalaşdırılmasına imkan yaradır. Bəzi mütəxəssislər iddia edir ki, dörd bacarığın hər birini eyni dərsdə eyni dərəcə istifadə etmək və formalaşdırmaq mümkün deyil. Yalnız, dərs müddətində dərsin məqsədinə uyğun iki əsas bacarıq digər iki bacarıqların köməyilə formalaşdırıla bilər.

Təcrübələrimə əsasən deyə bilərəm ki, aşağı kursda ingilis dilinin tədrisi zamanı dərs planıma əsasən 80 dəqiqə ərzində hər dörd bacarıqdan istifadə edə bilmişik.

Belə ki, dərsin ilk dəqiqələrində ingilis dilində keçirilmiş mövzularla bağlı lövhədə beyin həmləsi(brainstorming) üsulu ilə ümumi sual cavab edilir. Tələbələr sualları ingilis dilində eşidir, suallara şifahi şəkildə cavab verir və lövhədə dairə çəkərək cavabı yazır. Daha sonra, yeni dərsin mövzusu ilə əlaqəli motivasiya sualı qoyulur, müzakirə edilir və prezentasiya ilə izah olunur. Tələbələr prezentasiyadakı slaydları həm oxuyur, həm də geniş izahını dinləyirlər. Mövzunun möhkəmləndirilməsi üçün müəyyən qrup və ya cütlər şəklində müəyyən tapşırıqlar edilir. Və qruplar müəllimlə bərabər bir-birlərinin tapşırıqlarını oxuyub yoxlayırlar.

Bu nümunədə gördüyümüz kimi, 80 dəqiqə müddətində bütün kompetensiyalar bir-birilə əlaqəli şəkildə istifadə edildi, dərs interaktiv keçdi və innovativ təlim üsulları da dərsdə öz yerini aldı.

İnnovativ texnologiyalarından bəzi Aİ əsaslı tətbiqlər (Mondly), onlayn söhbət platformalarından olan Zoom, Speaky, SpeakPal kimi tətbiqlər tələbələrin real insanlarla və ya süni intellekt botları ilə ingilis dilində danışmaq imkanları onları inkişaf etdirir. Hətta Mondly proqramı tələbənin tələffüzünü təhlil edərək, səhvlərini göstərir.

Digər kompetensiyaya oxu bacarığı aiddir. Oxu bacarığı tələbələrin söz ehtiyatını artır, eləcə də, onlarda qrammatik anlayışı formalaşdırır[5, s.136]. Hal-hazırda e-book platformalarına real kitabxanalardan daha çox müraciət olunur. Bunlara Oxford Reading Tree, Rewordify, Kindle kimi platformaları misal göstərə bilərik. Bu tətbiqlərin hər birinin özünəməxsus funksiyaları vardır. Belə ki, Rewordify tətbiqi mətni sadələşdirərək tələbələrin anlamasını asanlaşdırır. Oxford

Reading Tree tətbiqi hər bir tələbənin dil səviyyəsini yoxlayaraq öz səviyyəsinə uyğun kitab məsləhət görür.

Bəzi funksiyalarına görə digər bacarıqlardan fərqlənən kompetensiya yazı bacarığıdır. Belə ki, yazı digər bacarıqlardan ilk öncə, prestijinə görə fərqlənir. Çünki, digər bacarıqlar zamanla ətraf mühitə uyğun olaraq qazanıla bilər. Yazını öyrənmək üçün təhsil almaq lazımdır. Eləcə də, yazı qalıcıdır və zaman asılılığı yoxdur.

Yazını formalaşdırmağa kömək edən texnoloji vasitələrə Ms Word, WordPress kimi tətbiqləri misal göstərə bilərik. Süni intellekt tətbiqlərindən olan ChatGpt, Grammarly kimi alətlər öyrəncilərin qrammatik səhvlərini düzəldərək, onların doğru versiyasını göndərir.

**Məqalənin predmeti** aşağı kurslarda ingilis dili dərslərini innovativ texnologiyalarla təşkilinin səmərəli yollarını tədqiq edərək hazırlamaqdır.

**Elmi yenilik.** Bu məqalədə innovativ texnologiyalar, Aİ əsaslı platformalar və onların aşağı kurslarda ingilis dilinin tədrisində oynadığı rollar tədqiq edilmişdir. Bunlarla yanaşı, mövzuda "Ağıllı məktəb" modeliylə "ənənəvi məktəb" modelinin fərqləri təqdim edilir. Eləcə də, dil dərslərinin əsasını təşkil edən dil bacarıqlarının tələbələrə aşılamağın innovativ texnologiyalarla daha efektiv və motivasiyaedici yolları irəli sürülmüşdür.

**Nəticə.** Texnologiyanın sürətli inkişafı və tədris prosesinə sürətli inteqrasiyası dil öyrənmə prosesini də rəqəmsallaşdırır. Xüsusilə də, pandemiya dövründən sonra innovativ texnologiyaların bütün təhsil müəssisələrində rolu aktual mövzuya çevrilmişdir.

Məqalənin nəticələri elm və təhsil sahəsində çalışan tədqiqatçılar üçün faydalı ola bilər. Eləcə də, bu nəticələr tələbələrin dil dərslərinə olan marağını, motivasiyasını və dörd bacarığın da texnoloji vasitələrlə düzgün istifadə edilməsinə kömək edir.

**Ədəbiyyat:**


1. Motteram, G. (2013). Innovations in learning technologies for English language teaching. British Council.
2. Harmer, J. (2015). The practice of English language teaching. Pearson Longman.
3. Godwin-Jones, R. (2011). Mobile apps for language learning. Language Learning & Technology, 15, 2–11.
4. TalkPal. (n.d.). What is LingQ? A complete guide to language learning with LingQ. https://talkpal.ai/what-is-lingq-a-complete-guide-to-language-learning-with-lingq/
5. Ur, P. (2012). A course in English language teaching. Cambridge University Press.
6. Richards, J. C., & Rodgers, T. S. (2014). Approaches and methods in language teaching. Cambridge University Press.
7. Stanley, G. (2013). Language learning with technology: Ideas for integrating technology in the classroom. Cambridge University Press.


**Leyla Maharramova**

**Summary**

**THE ROLE OF INNOVATIVE TECHNOLOGIES IN ENGLISH LANGUAGE TEACHING IN UNDERGRADUATE COURSES**

The rapid development of innovative technologies in the era of digitalization has led to important changes and innovations in the process of teaching English. Already traditional

teaching methods (grammatical translation method, audiolingualism) have been replaced by technological and interactive (CLT) based approaches. Each of the four skills – reading, writing, listening, speaking – which are the basis of foreign language teaching, can be developed at a high level using innovative technologies. The article examines ways to improve English and four language skills of undergraduate students with innovative technologies.

**Лейла Магеррамова**

**Резюме**

**РОЛЬ ИННОВАЦИОННЫХ ТЕХНОЛОГИЙ В ОБУЧЕНИИ АНГЛИЙСКОМУ ЯЗЫКУ НА НЕБОЛЬШИХ КУРСАХ**

Быстрое внедрение инновационных технологий эпоху цифровизации стремительное развитие привело к важным изменением и нововведениям в поцессе преподавания англиского языка. Традиционные методы обучения (грамматика – переводной метод, аудиолингвистика) в настоящее время заменены подходами, основанными на технологических и интерактивных методах(CLT) Каждый из четырех навыков, составляющих основу обучения иностранному языку-чтение, письмо, аудирование, говарение-можно развить до высокого уровня, используя инновационные технологии. В статье рассматриваються способы развития четырех языковых навыков англиского языка у студентов бакалавриата с использованием инновационных технологий.

*Rəyçi: ped.f.d., dos. G.X.Şirəliyeva*